***Tanınmış sənətşünas, milli musiqimizin ulu qaynaqlarını, çağdaş uğurlarını dərindən öyrənib ölkəmizdə və türk dünyasında geniş təbliğ edən İlqar Cəmil oğlu İmamverdiyev 1956-cı ildə qədim Gəncədə ziyalı ailəsində dünyaya göz açmış, ilk musiqi təhsilini burada almışdır. İstedadlı, çalışqan və yurdsevər gənc kimi tərbiyələnmiş soydaşımız 1981-ci ildə Bakı Musiqi Akademiyasını fərqlənmə diplomu ilə bitirmiş, 2000-ci ilədək yetirməsi olduğu bu ali müsiqi təhsili məktəbinin xalq çalğı alətləri kafedrasında çalışmışdır.***

# Milli musiqi qaynaqlarımızın yorulmaz tədqiqatçısı və təbliğatçısı



İlqar İmamverdiyev musiqi incəsənəti sahəsində elmi-pedaqoji fəaliyyətini 2000–2006-cı illərdə qardaş Türkiyənin Ərzurum Atatürk Universitetində, 2007-ci ildən isə Qaziantep Universitetinin Türk Musiqisi Dövlət Konservatoriyasında dosent, 2009-cu ildən isə professor kimi davam etdirir. Soydaşımız qardaş Türkiyədə Azərbaycanla bağlı keçirilən müxtəlif tədbirlərə peşəkar musiqi tərtibatı verir, hər yerdə milli musiqi örnəklərimizi şövqlə tanıdır. Həyatını bütünlüklə milli musiqi irsimizin tədqiqinə və dünyada tanıdılmasına həsr etmiş İlqar İmamverdiyev 1994-cü ildə sənətşünaslıq üzrə namizədlik, 2009-cu ildə isə doktorluq dissertasiyaları müdafiə etmişdir.

Qısa tərcümeyi-halını təqdim etdiyimiz İlqar İmamverdiyev 66 illik ömründə mükəmməl yaradıcılıq yolu keçmiş, bir sıra uğurlara imza atmışdır. Onun Türkiyə və Azərbaycan türkcəsi ilə yayınlanmış kitablarının sayı artıq 40-ı keçmişdir. "Ansambl üçün pyeslər məcmuəsi" (1997), "Azərbaycan aşıq ifaçılığı sənətinin səciyyəvi xüsusiyyətləri" (2004), "Azərbaycanın 20 saz havası" (2005) 3 cildlik, "Azərbaycanın 40 saz havası" (2006), "İran türklərində aşıq toy mərasimləri" (2006), "Azərbaycan və İran aşıq sənətinin qarşılıqlı əlaqələri" (2006), "Azərbaycan rəqs havaları" 2 cildlik (2007), "Azərbaycan muğam rəngləri və dəramətləri" (2007, 2009), "Aşıq Mikayıl Azaflının saz havaları" (2008), "Azərbaycan xalq mahnıları" (2007, 2008, 2009), "Azərbaycan muğam inciləri" (2010), "Azərbaycan instrumental xalq musiqi örnəkləri" (2010), "Azərbaycan və İran aşıq sənətinin qarşılıqlı əlaqələri" (2008) kimi silsilə kitablar milli musiqimizin aktual nəzəri və təcrübi məsələlərini beynəlxalq arenaya çıxardığı kimi, soydaşımızın özünü də yaxın-uzaq ölkələrdə görkəmli musiqi nəzəriyyəçisi kimi tanıtmışdır. Bu kitabların bir üstünlüyü də ondadır ki, alim tədqiq etdiyi musiqi örnəklərinin çoxunu nota almış və bu nəşrlərə daxil etmişdir.

Bundan əlavə, professor İlqar İmamverdiyevin Azərbaycan və Türkiyə mətbuatında 200-dən artıq məqaləsi çap edilmiş, bir çox elmi konfrans və simpoziumlarda təqdim etdiyi məqalələri maraqla qarşılanmış, mükafatlara layiq görülmüşdür. Çoxşaxəli yaradıcılıq yolu keçən, Azərbaycan musiqisi sahəsindəki mükəmməl araşdırmalara imza atan İlqar İmamverdiyev bədii yaradıcılıqla da məşğuldur. Onun 2010-cu ildə Azərbaycanda nəşr etdirdiyi "Miskin Abdal ocağının el sənətkarı", "Məzəli əhvalatlar və gülməcələr" kitabları ədəbiyyatımıza, mədəniyyətimizə göstərdiyi sevgi sayəsində ərsəyə gəlmiş və böyük maraqla qarşılanmışdır.

Mərhum filosof, professor Babək Qurbanov İlqar İmamverdiyevin "Miskin Abdal ocağının el sənətkarı" kitabına vaxtilə yazdığı "Ön söz"də onun yaradıcılığını belə səciyyələndirir: "Aşıq musiqisi, aşıq ifa üslubu, burada istifadə olunan lad-məqam xüsusiyyətləri, həmçinin intonasiya, ritm, akkord səslənmələri, zəngin melizm və s. kimi aşıq musiqi dilini xarakterizə edən qanunauyğunluqlar musiqi folkloru mütəxəssisləri və etnomuzikoloqlarımızı dərindən düşündürən problemlərdəndir. Bu sahədə professional musiqi təhsili almış İlqar İmamverdiyevin son zamanlardakı fəaliyyəti xüsusilə sevindiricidir. Onun aşıq havalarının nota alınması, ifası və təbliğinə həsr edilmiş onlarca məqalələrini, kitablarını xüsusi olaraq qeyd etmək mümkündür".

İlqar İmamverdiyevin "Məzəli əhvalatlar və gülməcələr" adı ilə təqdim etdiyi lətifələr milli folklor xəzinəmizə verilən bir töhfədir. Kitabda Gədəbəy və Gəncə ilə bağlı insanlarımızın başına gələn və indiyə qədər heç bir yerdə yayımlanmayan 302 əhvalat şirin və məzəli bir dillə oxuculara təqdim edilir. "Miskin Abdal ocağının el sənətkarı" kitabında isə İlqar İmamverdiyev Azərbaycan aşıq sənətinin ustadlarından olan, ədəbi mirası vaxtında toplanmayan, lakin haqqında bir çox rəvayətlər dolaşan XV-XVI əsrlərdə yaşamış, Gədəbəyin Miskinli kəndində anadan olmuş, Azərbaycan Səfəvi Dövlətinin hökmdarı Şah İsmayıl Xətai (1486-1524) ilə dost (bəlkə də qohum) olmuş, bəzi rəvayətlərə görə, Şah İsmayılın sarayında yaşamış və şahın Göyçənin Sarıyaqub kəndini bağışladığı Miskin Abdaldan bəhs edilir.

Kitabda Gədəbəyin Miskinli kəndində 1890-cı ildə anadan olmuş şair Miskinli Vəli Miskin Abdal ocağının davamçısı kimi təqdim edilir, yaradıcılığı və şeirləri haqqında məlumat verilir. Bu nəşrdə Miskin Vəlinin Aşıq Şəmşir və Gədəbəyin Səbətkeçməz kəndində anadan olmuş sayılıb-seçilən ziyalı Cəmil Əkbərlə (1928–2000) dostluğu, onun ədəbi görüşləri, şeirləri haqqında məlumatlar da maraqla oxunur. Həmin kitabda İlqar bəyin atası Cəmil Əkbərlə dost olan Aşıq Şəmşirin bəstələdiyi "Şəmşiri" aşıq havasının not yazısı da yer alıb.

Mən İlqar Cəmil oğlunun ədəbi-bədii axtarışları haqqında bu yazımda onu da demək istəyirəm ki, gözəl saz və tar ifaçısı kimi də tanınan bir tədqiqatçı alim, professor İlqar İmamverdiyevin ən böyük uğurlarından biri, bəlkə də, birincisi onun aşıq sənəti örnəklərini, bu sənətin yetişdirmələrini əsərlərinin çox diqqət və qayğıkeşliklə qələmə və nota almasıdır.

İlqar Cəmil oğlu, necə deyərlər, nağıllarda olduğu kimi əlinə əsa alıb, ayaqlarına




dəmir çarıq geyərək, tarixi Azərbaycan coğrafiyasının hər iki tayını qarış-qarış gəzərək, əksər bölgələrdə araşdırmalar apararaq qiymətli bir əsər yazmış, Azərbaycan türk aşıqlarının oxuduqları havaların bir çoxunu nota almışdır. Bu, aşıq sənəti araşdırmalarında ilk belə təşəbbüsdür. 2008-ci ildə Bakıda nəşr edilən "Azərbaycan və İran aşıq sənətinin qarşılıqlı əlaqələri" adlanan 976 səhifəlik həmin kitab İlqar İmamverdiyevin bu ağır, həm də şərəfli işin öhdəsindən məharətlə gəlməsinin samballı göstəricisidir. Bu materiallar bütöv Azərbaycan aşıq sənəti, bu sənətin coğrafiyası haqqında oxucunun gözünü doyduracaq şəkildə material verir.

Mən İlqar İmamverdiyevin mətbuatda işıq üzü görmüş kitablarını, çoxsaylı məqalələrini oxumuşam, milli aşıq musiqisini nota aldığı çoxsaylı musiqi nümunələrinə baxıb fərəh hissi keçirmişəm, onda olan marağa, sevgiyə, dəyanətə, həvəsə, milli-mənəvi dəyərlərimizə verdiyi qiymətə heyran qalmışam. Professor İlqar İmamverdiyevin "Azərbaycan və İran aşıq sənətinin qarşılıqlı əlaqələri" kitabının Şimali və Cənubi Azərbaycanda tarix boyu yaranmış aşıq musiqisinin bir kök üstə boy atması baxımından, Azərbaycan aşıq musiqisinin milli musiqi mədəniyyətindəki yerini və qarşılıqlı əlaqəsini dərindən dərk etmək baxımından müstəsna əhəmiyyətə malik olduğu qənaətinə gəlmişəm.

Göründüyü kimi, professor İlqar İmamverdiyevin mədəniyyətimiz, millət olaraq ümumi tarixə verdiyimiz töhfələr haqqında ərsəyə gətirdiyi əsərlər uzun illər bu sahədə mövcud olmuş boşluğu doldurmaqla, ölkəmizdə gərəkli nəzəri-praktiki mənbələr toplusu təşkil edir, eyni zamanda, xarici tədqiqatçılar üçün də zəngin bilgi verir. O, indiyə qədər çəkdiyi zəhmətin hesabına 50-dən çox mükafat almış, həm folklor, həm də Azərbaycan xalq musiqisi ilə bağlı onlarla beynəlxalq tədbirdə məruzələrlə iştirak etmiş, yazılar nəşr etdirmişdir.

Fədakar tədqiqatçı, sənət vurğunu olan alim, istedadlı aşıq musiqisi ifaçısı, səmimi insan və sədaqətli dost İlqar İmamverdiyevin dəyərli fəaliyyəti haqqında boya-başa çatdığı Azərbaycanda olduğu kimi, qonşu Türkiyə və İranda, eləcə də türk dünyasının digər ölkələrində də kifayət qədər deyilmiş və yazılmışdır. Bütün bunlar zəhmətkeş, yurdsevər alimi ömrünün məhsuldar çağında yeni axtarışlara, dəyərli əsərlər yaratmağa ruhlandırır.

***Maarifə HACIYEVA,***
***filologiya elmləri doktoru, professor***